# Məktəbəqədər təhsilin əhatə dairəsi genişləndirilir

**İyunun 11-də Milli Məclisin Elm və təhsil komitəsinin iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, komitənin sədri Anar İsgəndərov iclasda bir məsələnin - "Təhsil haqqında" və "Məktəbəqədər təhsil haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsinin birinci oxunuşda müzakirəyə təqdim edildiyini söyləyib.**



Komitə sədri Azərbaycan Prezidenti tərəfindən qanunvericilik təşəbbüsü qaydasında Milli Məclisə təqdim edilən qanun layihəsinin təhsil sahəsinin daha da inkişafı baxımından önəmli olduğunu bildirib.

Sonra parlament Aparatının Sosial qanunvericilik şöbəsinin Humanitar məsələlər üzrə qanunvericilik sektorunun müdiri Şahin Quliyev qanun layihəsinin mahiyyəti haqqında məlumat verib. O, ölkə Prezidentinin 2022-ci il 22 iyul tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın Tədbirlər Planının müvafiq müddəasında məktəbəqədər təhsil sahəsində alternativ təhsil və maliyyələşmə modelləri əsasında əhatəliliyin artırılmasının nəzərdə tutulduğunu deyib. Habelə qeyd edib ki, hazırda məktəbəqədər yaşlı uşaqların təhsili yalnız məktəbəqədər təhsil müəssisələrində deyil, həm də məktəbəhazırlıq qruplarının fəaliyyət göstərdiyi ümumtəhsil məktəblərində və uşaqlar üçün icma əsaslı təlim qruplarında həyata keçirilir. Bununla yanaşı, ölkəmizdə fəaliyyət göstərən bəzi özəl uşaq inkişaf mərkəzlərində məktəbəqədər yaşlı uşaqların təhsili praktikası mövcuddur.

Diqqətə çatdırılıb ki, məktəbəqədər təhsilin əhatə dairəsinin artırılması məqsədilə "Təhsil haqqında" qanunun 18.5-ci maddəsində məktəbəqədər təhsilin həyata keçirildiyi müəssisələrə məktəbdənkənar təhsil müəssisələrinin, "Məktəbəqədər təhsil haqqında" qanunun 8.5-ci maddəsində məktəbəhazırlığın həyata keçirildiyi müəssisələrə məktəbdənkənar təhsil müəssisələrinin, həmin qanunun 11.4-cü maddəsi ilə müəyyən edilən məktəbəqədər yaşlı uşaqların təhsili ilə məşğul olan müəssisələrin növlərinə isə məktəbəhazırlıq qruplarının fəaliyyət göstərdiyi məktəbdənkənar təhsil müəssisələrinin əlavə edilməsi təklif olunur.

Məsələ ilə bağlı müzakirələrdə komitənin sədr müavini Fariz İsmayılzadə, üzvləri Şahin Seyidzadə, Ceyhun Məmmədov, Bəxtiyar Əliyev, Samir Vəliyev, Sevinc Fətəliyeva, Elçin Mirzəbəyli, Rəşad Mahmudov, Fatma Yıldırım, Afət Həsənova çıxış edərək ölkəmizdə təhsil sahəsində davamlı olaraq islahatların həyata keçirildiyini vurğulayıblar, qanun layihəsində nəzərdə tutulan dəyişikliklərin dövlətin təhsil strategiyasına uyğun olduğunu, məktəbəqədər təhsilin inkişafına xidmət etdiyini bildiriblər. Millət vəkilləri bəzi qeyd və təkliflərini də səsləndiriblər.

Müzakirələrin yekununda qanun layihəsi birinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə olunub.

***"Azərbaycan"***

Azərbaycan. - 2025.- 12 iyun (№ 119).- S.3.